# GÖZLƏNİLMƏZ GÖRÜŞ



*Qəzənfər KAZIMOV, professor*

*(Əvvəli ötən saylarımızda)*

**Mənim başqa fikirlərim:**

1.Radio-televiziya, teatr, üzdəniraq «şou» xadimləri, mənə elə gəlir ki, Azərbaycan dilini lağa qoyurlar. Niyə artistlər tamaşaçı xoşuna gəlsin deyə, «qədəş» dilində danışırlar? Niyə bizim dilimizi müstəmləkəçi rus sözləri ilə iyrəncləşdirirlər? Niyə azərbaycanlılar Bakıda ekran qarşısında rus dilində danışmaqdan qürur hissi duyurlar? Haçana kimi biz də hindlilər kimi özümüzü müstəmləkə hesab edəcəyik? Niyə mərhum Bülbülün, Xanın, R.Behbudovun qızları rus dilində intervu verir? Belə misallar minlərcədir. Haçana kimi biz «oviç», «eviç» olub, «ov», «ev» ilə familiya daşıyacağıq? Tacikistan artıq belə familiyadan imtina edib. Biz isə özümüzü daha «sivil» hesab edirik. Adam Yerevan və Tbilisi telekanallarına baxanda görür ki, bir dəfə də cümlə içərisində rus sözünün köməyinə qaçmırlar. Biz isə hər addım başı: «znaçit», «tak çto», "kak budto», «i», «neujeli», «toçno» və s. və i. sözlərlə dilimizi ləkələyirik.

«Kiçik qardaş» xəstəliyindən çıxmamışıq. İndi də rus dilindən başqa «osmanlı» sözləri bizim dilə müdaxilə edir. Sən bizim məktəblər üçün «türk dili» dərsliyi yazmısan, osmanlı türkcəsini əla bilirsən və bilirsən ki, osmanlılara nisbətən bizim dil daha mükəmməldir, yumşaqdı, müstəqildi. Bizdə osmanlılardakı kimi əldə qayırma sözlər yoxdur. Niyə bizim dildə olan təyyarəyə - uçak, qatara - tren, maşına - araba, əvvələ - öncə və s. deyək? Bu sözləri onsuz da bizim savadsızlar da başa düşürlər. Əgər tamamilə «osmanlılığı» qəbul etsək, osmanlı türkündə danışmaq lazım idisə, niyə onda Şah İsmayıl Xətai Paşa ordusu ilə vuruşurdu? Niyə Qurbanini on illərlə osmanlılar əsirlikdə saxlayırdılar?

Bunları deməkdə məqsədim odur ki, biz azərilər azəriliyimizi saxlayaq, osmanlı türkləri ilə, Orta Asiya türkləri ilə və bütün türklərlə qardaş olaq, böyüklük-kiçiklik olmasın. Koroğlu vaxtından belə bir tərəkəmə məsəli qalıb: «Torpağı qoru farsdan, əxlaqı türkdən» (osmanlı türkü nəzərdə tutulur - Q.K.). Bu məsəl bu gün daha aktualdır. Əgər baxsan, Azərbaycan teleanonsu qadın-qızlara, bizim əndamını həvəslə tamaşa etdirən xanımlarımıza, «onlar» bu «sivilliyi» türk xanım müğənnilərindən götürürlər, «onlara» oxşamağa can atırlar. Burda deməli söz çoxdu, adamın kağıza yazığı gəlir.

2.Məni narahat edir Azərbaycanda «müəllim» sözünün deformasiyası. Müəllim sözü - müqəddəs sözdür. Bunu hətta hər müəllimə də demək olmaz. Məhyəddin kimisinə yox, Fərman kimisinə. Bilirsən hardan danışıram? Müasir Azərbaycanda artıq kartof satana da, tar, qaval, nağara vurana (çalana), çobana, polisə, zabitə, sürücüyə, nə bilim, daha kim qalıb «müəllim» deməsinlər. Nə qədər deqredasiya olmaq olar?! Niyə Anarlar, Nizami Cəfərovlar, Sabir Rüstəmxanlılar, Qəzənfər Kazımovlar susurlar? Niyə demirsiniz, ay camaat, kişiyə «bəy», «cənab», «ay qardaş», «ata», «dədə» və s. deyin. Hər oxuyan «Molla Pənah» olmayıb. Hər özündən böyüyə (yaşda) «müəllim» deyib müraciət etmək qəbahət yox, günahdır! Belə çıxır: itinin adını bilməyən - «Altunum, Altunum» - çağırır. Məncə, bu məsələni mətbuat, teleradio vasitəsilə dövlət səviyyəsində araşdırıb aydınlıq gətirmək lazımdır.

3.Azərbaycanlıların axır vaxtlar (1990-cı ildən başlayaraq) kütləvi surətdə vətəni tərk etməsinin çox faciəli sonluğu olacaq. Əgər bu hadisə dayanmasa, xalqın genefondu - gənc oğlanlar ölkəni tərk edirlər, nəticəsi pis olacaq, MDB-də hara baxsan, azəri oğulları kartof-soğan satmaqla məşğuldurlar. Krımda insan kütləsinə daş atsan, azərbaycanlılara dəyəcək. Əgər biz düşünsək ki, yəhudilər, ermənilər kimi, diaspora yaradırıq, çox səhv edirik. Onların tarixi vətəni olmayıb, daima özgə torpaqlarda yaşayıblar. Harda doğulubsa, ora onlar üçün vətən olub. Əgər Bakıya, Gəncəyə İrandan, Türkiyədən, Çindən, Vyetnamdan fəhlələr gəlib bazarda iş tapırlarsa, azərbaycanlılar da Misirə, İrlandiyaya, Finlandiyaya, Yeni Zellandiyaya getməlidir?

Qəzənfər, xaricdə doğulmuş heç bir azərbaycanlı uşağı özünü azərbaycanlı hiss etmir, dili də bilmir! Bütün azəri gənclər xristian qadınlarla evlənirlər, onların uşaqları da bədbəxt olurlar. Vətənimizdə isə qızlar ingilisə, almana, yəhudiyə, italyanlara ərə gedir. Biz də «Gülüstan» sarayında onların toy məclisini ekrana çıxarır və bununla fəxr edirik.

Azərbaycan ziyalıları, siz bütün bu əyrilikləri görürsünüz. Heç olmasa, qəzetdə, jurnalda, televiziyada bir polemika açın, çığırın, bağırın. Qoy:

İşıqlı gün olsun bu qara zülmət,
Oyansın yuxudan bizim bu millət.

Yaxşı, bəsdi, mən işsiz adamam, vaxtım da çoxdur. Yormayım səni ürəkdən qan axıdan sözlərlə - sən kinayə ilə öz doğma institutun haqqında dediyin kimi, «Çörəyi ver çörəkçiyə».

Qardaş, sən həqiqətən bilmirsən ki, mənim anam Suduş xala Əlibəylər nəslindən olan Süleyman bəyin qızı olub. Mənim ata tərəfim Soltanlıda ən mülksüz, ən yersiz, torpaqsız nəsil olub. Səbəbi: ulu babam Orucun atası vaxtilə İrandan - «Üç qardaşın» dibindəki kənddən aclıq ucundan gəlib biz tərəfə. Qavışdıdan (Qovuşutludan) olan Yetər adlı qız alıb, Soltanlıda kəndin kənarında Araza yaxın köhnə su arxından bir az aşağı - Şamlığa yaxın yerdə özünə yurd tutub. Babam «quldur Avdılla» ləqəbi alıbdır, ona görə ki, həyətyanı 1-2 hektar sahədən başqa, torpağı olmayıb. Hər həftə paltarını yığıb, keçərmiş Arazı o taya. Tüfəng, patron, parça və s. kontrabanda apararmış o taya, orada satarmış. O tayda olan, ancaq bizdə olmayan malları alıb gətirib satarmış. Beləliklə, müasir dildə «çelnok-biznesmen» olub. Nikolay saldatlarının icazəsi olmadığı üçün Arazı keçdiyinə və bu «qoçaqlığına» görə «quldur» adlandırıblar. Bilirsən ki, bizim camaat ləqəb verməkdə usta olub.

Anam tərəfi isə özünü XVII-XVIII əsrdən tanıyır. Ən ulu əcdad Alı Keyxa olub. Onun oğlu Əli bəyin mülkü Kavdarda (Əlibəylidə) Fığanlı kəndində (Mahmudludan Cəbrayıla gedən yolun sağ tərəfində - dərədə), Sirikdə, Minbaşıda, Mirzəcanlıda, Məstəlibəylidə (Qumlaxda), Havıstıda, Şükürbəylidə və s. olub. Əli bəyin yay rezidensiyası Ziyarat dağının ətəyində olub. Sonralar yaranan erməni kəndləri: Dolannar, Daşbaşı, Mülkədərə, Hərəkül əraziləri (13 kənd) onun istirahət zonası olub. 1828-ci ildən sonra Əli bəyi Yelizavetpola çağırıblar və çar qubernatoru onu bu yerlərə köçüb gələn erməniləri yerləşdirməyə vadar edib: onsuz da bu gələnlər sənə rəiyyət olacaq (poddannıye) deyib.



Valeh Soltanlı

Bilirsən ki, Xalq artisti Səyavuş, Yasif Nəsirlinin anası, filologiya elmləri doktoru, professor Kamil Vəliyev, Taxta Şəmil, kondisioner zavodunun 1970-ci illərdəki direktoru (adı yadımdan çıxıb, əsli Şükürbəyli olub), riyaziyyat elmləri doktoru, professor Əşrəf Hüseynov və b. anamın ulu babası Əli bəyin soyundandır. Bunun kimi, onun əmisi Həsənəli bəy - alikeyxalılıdır. Anamın əmiləri Ağalar bəy, Allahverdi bəy (Qumlaxlı) Bəylikdə (Qumlaxda - Məstəlibəylidə) yaşayırdılar. Əgər yadına düşürsə, Allahverdi babam dülgər idi. Bizim kənd məktəbinin üstü çəyən idi. O gəldi, bizim məktəbdə dəzgah qurdu, şam ağaclarından stropula (çatma) düzəltdi və məktəbin (kənddə birinci olaraq) damını şifer ilə örtdü.

Sovet vaxtı Allahverdi babam onunla təsəlli tapdı ki, bütün qoyun sürüsünü, atlarını, dəvələrini, mallarını öz əli ilə apardı, verdi kolxoza, dedi, bax mən də hamı kimi yoxsulam, kolxozçuyam. 1941-1945-ci illərdə Qumlaxda öz adını yaza bilməyən bu müdrik adam kolxoza sədrlik də etdi. Mən qandan, tərbiyədən, naziklikdən hamıdan seçilməyimdə (sən yazan kimi) Əlibəylərə çəkmişəm. Müdrikliyi isə Allahverdi babamdan öyrənmişəm. O, mənə deyərdi: «Düşmənin başını pambıq ilə kəs, qoy canı ağrımasın!» Gör bu sözlərdə nə qədər hikmət, məna var!

Yenə sən bilməyən xəbər. Sənin dostun, hörmət etdiyin Cavad Heyət - iranlı alim, cərrah 2004-cü ilin iyun ayında mənim evimdə olub, çörəyimi yeyibdir. İstəyirsən özündən soruş. O vaxtı sənin onu tanıdığını bilməmişəm. Mən hətta onunla telefonda Tehran ilə də danışmışam. Yanıma adam yollayıb (iş adamı), ona kömək də etmişəm. 2004-cü ilin iyununda burada - Simferepolda Ümumdünya Türk xalqları Simpoziumu var idi. Bakıdan Kamil Vəliyev və Tofiq adlı (Hüseynov, qazaxlıdır) ADU-nun professoru burada idilər. Onları qonaq apardım evə. Söhbət əsnasında məlum oldu ki, Kamil Vəliyev bizim soydandır - əqrəbamdır.

Bax, bu qana görə mən heç kimə oxşamıram. Bəs hiss etmirdin ki, mənim anam Suduş arvad da çox fərqlənir. Yadındadır, kənddə ölü düşəndə hamı gəlib anamı ehsan bişirməyə apardı. O bacardığını çoxları bacarmırdı. Ümumiyyətlə, desəm, qardaş, mən nə daxildən, nə də xaricdən azərbaycanlıya oxşamıram. Sifətdən mən də daha çox xarəzmlilik, xasiyyətdə alman pedantizmi, xarakteri, yapon səliqəliliyi, ingilis düzgünlüyü vardır. Bilmirsən bu yaxşıdır, ya pis. Mən vətənimi, dilimi, dinimi, elimi, obamı dəlicəsinə sevə-sevə, azərbaycanlılarla çox təmasda ola bilmirəm. Saxtalıq, yaltaqlıq, paxıllıq, pulagirlik, rüşvətxorluq, yalan demək, sırtıqlıq, zarafat etmək (eşşək zarafatı), tənbəllik, lovğalıq və s. mənfi cəhətləri görəndə mən durub belə məclisi tərk edirəm. Əslini deyim ki, mənim Bakıdan çıxıb getməyimə (2-3 dəfə) rusdilli, kosmopolit, kənddən gələn azərbaycanlılara yuxarıdan baxan, özləri «qədəş» olub, bizə «çuşkə» deyənləri görməmək səbəb oldu. Bizim Nadirlər, Məhəmməd Qacarlar, Atabəylər. Abbas Mirzələr Azərbaycan yerinə İran dövləti yaratdılar, azəri dili əvəzinə fars dilini dövlət dili etdilər. Bizim yurdlara köçüb gələn erməniləri o vaxt çomaq ilə qovmaq olardı. Bir qrup erməni «hay» deyəndə bizim qoçularımız, bəylərimiz, xanlarımız camaatla birgə yerini, yurdunu atıb qaçdı - «vay-vay» deyib ağladı, hələ də ağlayırıq. Burada çox vaxt məni tanımayan adamlar məndən soruşurlar: «Sən kimsən?». Deyirəm, «monqolam», - ya Çingiz xan nəslindənəm. Çünki hamı bilir, biz nə biabırçılıqla ermənilərə torpaqlarımızı pay vermişik. Çingiz xan isə güclə hamıdan torpaq alıb.

Əziz qardaşım! Səninlə görüşüb, oturub dərdləşib, danışmaq mənim də arzumdu. Həbib müəllim dedi ki, sənin ağzından çıxıb ki, Krımı görmək istərdim. Sən ancaq gəlib-getmə biletini al. Allaha şükür, böyük evim var. İstəyirsən lap xanımını da al gəl, istəyirsən özün gəl. Gözümüz üstə yerin var, qalmalı yer boldur. Yemək-içmək də onun kimi. Bütün Krımı gəzdirim. Yalta, Sevostopol, Baxçasaray, Evpatoriya, Feodosiya və s. Məncə, məmnun olarsan. Ukraynanı, Krımı görərsən.

*(Davamı var)*